# Onlar vətən uğrunda vuruşmuşlar

### Anım günləri

Vətən müharibəsində gözünü belə qırpmadan canını fəda edən oğullardır şəhidlər! Vətənin oğul dediyi, qayasında mamır olub bitən igidlər. Məmməd Araz vətən oğullarının arzularını, vətən sevgisini ifadə edərək yazmışdı bu şeiri sanki... Vətən mənə oğul desə, nə dərdim!..

Qəhrəmanlıq və şücaətlə döyüşənlərin sırasında Qəbələ övladları da vardır. Onlardan 37-si şəhadətə qovuşmuş, 179 nəfəri öz sağlamlıqlarını itirmiş qazilər və yüzlərlə döyüş həyatı yaşayan vətənpərvərlərdir. Onlar vətən uğrunda döyüşmüşlər... Onların qəhrəmanlığı unudulmur və unudulmayacaq!









Zəfər bayramı ərəfəsində doğum və şəhadətə qovuşan günləri olan qəhrəmanlarımız həmişə xatırlanır, məzarları və ailələri ziyarət edilir. Son günlərin ziyarətləri qəzetimizin bu günki nömrəsində öz əksini tapmışdır.

Tüntül kəndindən şəhid **Tapdıq Ağayev** (30.10.2020), Zərgərli kəndindən şəhid **Şöhrət Mikayılov** (01.10.2020), Yengicə kəndindən **Səmədli Vüqar** (02.11.2020), Savalan kəndindən şəhid **Mikayıl Əhmədov** (03.11.2020), Nic qəsəbəsindən şəhid **Rəşid Nəsrullayev** (03.11.2020), Yemişənli kənd sakini şəhid **Təbriz Qasımov** (05.11.2020), Nohurqışlaq kəndindən şəhid Bəhruz Abuşovun (11.11.2020) şəhadətə qovuşmasının bir ilinin tamam olması ilə əlaqədar anım mərasimləri keçirilmişdir.











Məzarları rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və müəsisə, təşkilatların rəhbərləri, rayon fəalları, şəhidlərin oxuduğu məktəb kollektivləri, yaxın qohum və əzizləri onların məzarlarını ziyarət edərək, üzərinə gül dəstələri qoymuş, xatirələri anılmış, ruhuna dualar oxunmuşdur. Adının əbədiləşdirilməsi ilə bağlı bir qrup şəhidlərin adına yaradılmış bulaq və xatirə komplekslərinin açılış mərasimləri keçirilmişdir.

Şəhidlərin ailələri mərasim iştirakçıları tərəfindən evlərində ziyarət olunmuşlar. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

### Doğum günləri

Rayonumuzun zəfər tarixini yazan igid oğullarımızdan Böyük Pirəlli kənd sakini, şəhid **Sərvan Eyyubovun** noyabrın 2-də (02.11.1998) və Tüntül kənd sakini, şəhid **İsmayıl Kərimovun** (03.11.1990) isə noyabrın 3-də doğum günləri olmuşdur. Bu münasibətlə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, şəhidin təhsil aldığı məktəbin kollektivi və şəhidin ailə üzvləri onların məzarlarını ziyarət etmişlər. Şəhidlərin məzarları üzərinə gül dəstələri qoyularaq xatirələri ehtiramla anılmış, ruhuna dualar oxunmuşdur. Şəhidlərin ailə üzvləri dövlət rəhbərliyinə göstərilən qayğıya görə öz minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ"**



